**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№354/3** **14 mart 2023-cü il**

## "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın təkmilləşdirilməsi barədə

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"nda (2021-2030-ci illər) həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının təqvim planının 1.1-ci "Auditorlar Palatası tərəfindən aparılan keyfiyyətə kənar nəzarət prosedurlarının nəticəliliyinin yüksəldilməsi", 1.4-cü "Kiçik və orta auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditin keyfiyyətinə kənar nəzarətə dair metodik bazanın təkmilləşdirilməsi", 1.7-ci "Mütəxəssis və işçilərin fəaliyyətinin yaxşılaşdırılması, iş fəaliyyətinin müvafiq keyfiyyətinin təmin edilməsi üçün bütün səviyyələrdə cari nəzarətin həyata keçirilməsi", 1.22-ci "Keyfiyyətə kənar nəzarət üzrə normativ-hüquqi bazanın mütəmadi olaraq təkmilləşdirilməsi", 14.1-ci "Auditin keyfiyyətinə kənar nəzarətə dair metodik bazanın təkmilləşdirilməsi" və Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2.1-ci "Beynəlxalq təcrübə nəzərə alınmaqla "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydaların təkmilləşdirilməsi" bəndlərinə, Beynəlxalq Audit Standartlarına, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə Birlikdə), 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartına, 1 Saylı "Maliyyə Hesabatlarının Auditini yə ya Təhlilini, yaxud Digər Təsdiqləmə yə ya Əlaqəli Xidmətlər üzrə Tapşırıqları Yerinə Yetirən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsi", 2 Saylı "Tapşırığın keyfiyyətinin təhlili" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartları, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) 1 saylı "Keyfiyyətin təmin edilməsi" üzvlük öhdəliyinin tələblərinə müvafiq olaraq yenidən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla yenidən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının Keyfiyyətin idarə edilməsi şöbəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki:

2.1. auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş Qaydalara uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər;

2.2. cari ilin ikinci rübü ərzində bu Qaydaların tətbiqi ilə əlaqədar keyfiyyətə kənar nəzarət üzrə müfəttişlərə seminarın keçirilməsini təmin etsinlər.

3. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri V.Rəhimova tapşırılsın ki, bir ay müddətində rəhbərlik etdiyi komitənin Əsasnaməsini bu Qaydalara uyğun olaraq yenidən işləyib təqdim etsin.

4. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar" qüvvədən düşmüş hesab edilsin.

5. Palata sədrinin müşaviri F.Qarayeva tapşırılsın ki, bir həftə müddətində bu qərarın və təsdiq edilmiş Qaydaların mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**